

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır.*



# ŞƏRQ QAPISI

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

*Sayı: 31 (19.945)*

*17 fevral 2010-cu il, çərşənbə*

**Gündəlik ictimai-siyasi qəzet**

*E-mail:serqqapisi@nakhchivan.az*

*Qiyməti 20 qəpik*





*Rəsmi xronika*

Fevralın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qazaxıstana gedərkən yolüstü Bakıda dayanan İsrailin keçmiş Baş naziri Exud Olmerti qəbul etmişdir.

* * *

Həmin gün dövlətimizin başçısı İspaniyanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Xuan Klos i Mateonun, Qırğızıstanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Raimkul Attakurovun, Slovakiyanın ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Yozef Miqaşın etimadnamələrini qəbul etmişdir.

* * *

Fevralın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qazaxıstanın dövlət katibi–xarici işlər naziri, ATƏT-in fəaliyyətdə olan sədri Kanat Saudabayevin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

## Azərbaycan dünyanın sürətlə inkişaf edən dövlətinə çevrilmişdir

***XX** əsr Azərbaycan tarixinin ən parlaq siması, qüdrətli şəxsiyyəti olan ulu öndərimiz Heydər Əliyev Azərbaycan xalqının və dövlətinin milli mənafeyini hər şeydən uca tutan, onu ümumi məqsədlər naminə səfərbər etməyi bacaran, cəmiyyətdə qanunçuluğu, hüquq qaydalarını təmin edən bir rəhbər idi. Sovet rejiminin sərt qanunlarına baxmayaraq o, Azərbaycanda böyük iqtisadi, elmi və ədəbi-mədəni inkişafa, müstəqil düşüncəyə yol açdı. Qısa zaman kəsiyində Azərbaycan SSRİ-nin tərkibində o zaman üçün müasir iqtisadi potensiala malik olan respublikaya çevrildi. Ulu öndərin rəhbərliyi altında başlanan genişmiqyaslı işlərin nəticəsində Azərbaycan ittifaq respublikaları arasında öz layiqli yerini tapdı. Müstəqil Azərbaycanın sosial-iqtisadi bünövrəsi məhz Heydər Əliyevin sayəsində ötən əsrin 70-80-ci illərində qoyuldu və ölkəmizin gələcəyi üçün möhkəm təməl yaradıldı.*

Heydər Əliyevin təşəbbüsləri ilə sovet dövründə xalqımızın milli şüurunun inkişafına güclü təkan verən tədbirlər həyata keçirildi. Təkcə sosial-iqtisadi yüksəliş deyil, o dövrdə milli-mənəvi dəyərlərə qayıdış da Heydər Əliyevin adı ilə bağlı idi. Sovet ideologiyasının hakim kəsildiyi bir zamanda Heydər Əliyev xalqımızın mənəvi dəyərlərinin itməməsi üçün əlindən gələni edirdi.

**Ardı 2-ci səhifədə**

*Azərbaycan kəndinin bu günü*

## Nüsnüs–Ordubadın bəzəyi

*Muxtar respublikada gedən inkişaf, quruculuq prosesləri bu kəndi xoş günə çıxarıb*

***Cənnət diyarı Ordubadda bir kənd var... Axarlı-baxarlı bağları, bağçaları gözoxşayan, dağların, bol sulu dərələrin arasında yerləşən bir kənddir Nüsnüs. Əsrlərlə yaşı olan bu yurd yerinin hər daşı, hər qayası bir tarixdir. Mülayim təbiəti kimi insanları da mehriban, üzügülər və qonaqpərvərdirlər. Buraya yolu düşən qonaq ev sahibləri üçün əsl bayram əhval-ruhiyyəsi yaradır. Masalara cürbəcür şirniyyatlar düzülür, limonlu çay gətirilir, şirin, duzlu, məzəli söhbətlər başlayır... Bu yaxınlarda mənim də yolum bu kəndə düşmüşdü. Kəndə bir dostumun dəvəti ilə gedirdim. Əvvəllər də bu kənddə olmuşdum. O vaxt kəndin yolları bərbad vəziyyətdə idi. İndi isə o əyri-üyrü, qorxulu yollardan əsər-əlamət yox idi. Avtomobil çox rahatlıqla bizi kəndə çatdırdı. Açığını deyim ki, buranın havası insanı valeh edir. Kəndi ikiyə bölən Dübəndi çayı sakit-sakit axıb gedir, dərədən qalxan səs məlahətli zümzüməyə çevrilir. Çay kənarındakı ağaclar geniş açılmış çətiri xatırladır. İstər-istəməz bu ecazkar mənzərənin sehrinə düşürsən.***

Ordubad Rayon İcra Hakimiyyəti başçısının Nüsnüs kəndi üzrə nümayəndəsi Vüqar Nəcəfovla da görüşüb söhbət etdim. Müsahibim şirin Ordubad şivəsilə mənə kənddəki yeniliklərdən söz açdı. Bildirdi ki, muxtar respublikamızda kənd yaşayış məntəqələrinə göstərilən dövlət qayğısından bu kənd də xeyli bəhrələnib. Bu diqqət və qayğının bir nümunəsi də kənddə yeni tikilən ticarət mərkəzidir. İki mərtəbədən ibarət olan bu mərkəzdə kənd sakinlərinin zəruri ehtiyaclarını ödəyəcək məhsullar satılacaqdır.

**Ardı 4-cü səhifədə**

*Xəbər*

## Sınaq imtahanlarının nəticələri müzakirə edildi

***Naxçıvan Şəhər İcra Hakimiyyətinin akt zalında Naxçıvan şəhər məktəblərinin XI sinif şagirdləri arasında keçirilmiş test-sınaq və xüsusi test-sınaq imtahanlarının nəticələri ilə bağlı müşavirə keçirilmişdir.***

Müşavirədə Naxçıvan Muxtar Respublikasının təhsil naziri Piri Nağıyev çıxış edərək elmin sürətli yüksəlişi, bu məqsədlə müvafiq bazanın yaradılması və bu əsasda yüksək səmərəliliyə nail olunmasından danışmış, təhsilin inkişafının muxtar respublikada dövlət siyasətinin mühüm istiqamətlərindən biri olduğunu diqqətə çatdırmışdır.

Qeyd olunmuşdur ki, regionumuzda bu sahəyə yüksək qayğının nəticəsidir ki, hər il yeni məktəb binaları inşa edilir və ya əsaslı təmir işlərindən sonra müəllim və şagirdlərin istifadəsinə verilir. Onların hamısında müasir idman zalları, kitabxanalar, laboratoriyaların olması, informasiya texnologiyalarının quraşdırılması təhsildə yüksək nəticələr qazanılmasına şərait yaradıb. Şagirdlər arasında tez-tez təşkil olunan test-sınaq imtahanları da mühüm əhəmiyyət kəsb edir.

Tədbirdə Naxçıvan Şəhər Təhsil Şöbəsinin müdir əvəzi Pənah Babayev çıxış edərək keçirilən test-sınaq imtahanlarının nəticələri ilə bağlı ətraflı məlumat vermişdir. Qeyd olunmuşdur ki, keçirilən imtahanlarda 598 nəfər XI sinif şagirdi iştirak etmiş, onlardan 371 nəfəri keçid balını toplamışdır. 49 nəfər isə 500-700 intervalında bal toplamağa nail olmuşdur. Məktəblilər arasında ən yüksək nəticələri 1, 5, 12 və 15 nömrəli məktəblərin şagirdləri göstərmişlər.

Müşavirədə Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Səfərov çıxış edərək təhsil sahəsinə göstərilən qayğı müqabilində pedaqoji kollektivlərin üzərinə düşən vəzifələrdən danışmış, təhsil naziri Piri Nağıyev müşavirəyə yekun vurmuşdur.

**Nuray ƏSGƏROVA**

*Xəbər*

## Cari ilin quruculuq ünvanları

***Hər il olduğu kimi, cari ildə də muxtar respublikada genişmiqyaslı tikinti-quruculuq və bərpa-təmir işləri aparılması nəzərdə tutulub. Belə tədbirlərdə yenə də təhsil sahəsi öndə gedəcək. Bu sahənin inkişafının müasir tələblər səviyyəsində qurulmasını təmin etmək məqsədilə Şərur rayonunda da yeni məktəb binalarının sayı artacaq. Bunlardan biri 568 yerlik olan Yengicə kənd məktəbinin binasıdır. Belə sevinci yaşayanlardan biri də maxtalılar olacaq. Bu kənddəki məktəb binası isə 522 şagird yerlikdir.***

Təhsilin yüksək səviyyədə qurulmasını təmin etmək məqsədilə digər bölgələrimizdə də bu istiqamətdə görülən məqsədyönlü tədbirlər diqqət mərkəzində saxlanılıb ki, onlardan ən böyüyü Culfa rayonunun payına düşüb. Belə ki, artan tələbatı və gələcək perspektivləri nəzərə alınaraq daha bir məktəb binası tikilməklə Culfa şəhərində təhsil ocaqlarının sayı 3-ə çatdırılacaq. Qeyd edək ki, 774 şagird yerlik binanın artıq inşasına başlanılıb. Bu bölgədə təhsilin inkişafına göstərilən daha bir qayğının nəticəsidir ki, şəhər 2 nömrəli orta məktəbin binası yenidən qurulacaq. Yenidən qurulacaq məktəblər sırasında Naxçıvan şəhərindəki 15 nömrəli məktəbin də adını qeyd etmək olar.

Kəngərli rayonu da dövlət qayğısından kənarda qalmayıb. Yeni Kərki kəndində inşa edilən 88 şagird yerlik məktəb binası da belə qayğının ifadəsidir. Cari ildə məktəbəqədər tərbiyə müəssisələri də unudulmayıb. Belə ki, 2010-cu ildə 2 uşaq bağçası üçün yeni binaların tikintisi nəzərdə tutulmuşdur ki, bunlardan biri Naxçıvan şəhərində inşa olunacaq 200 yerlik və Culfa şəhərində isə 160 yerlik uşaq bağçalarıdır. Hər iki tərbiyə müəssisəsində məktəbəqədər yaşlı uşaqların məktəblərə hazırlanması üçün normal şərait yaradılacaqdır.

Muxtar respublikanın üç rayonunda isə şagirdlərin istedad və bacarıqlarının düzgün formalaşdırılmasını günün tələbləri səviyyəsində həyata keçirmək üçün yaxın vaxtlarda uşaq musiqi və incəsənət məktəblərinin inşa olunması da planlaşdırılıb. Belə ki, Babək qəsəbəsində və Şahbuz şəhərində uşaq musiqi məktəbləri, Şərur şəhərində incəsənət məktəbi üçün müasirtipli layihə əsasında yeni binaların tikintisi 2010-cu ilin quruculuq tədbirləri sırasına daxil edilib. Cari ildə digər ünvanlarda da müxtəlif təyinatlı obyektlər inşa olunacaq.

**M.MƏMMƏDOV**

*Nüsnüs–Ordubad rayonunda kənd. Eyniadlı bələdiyyənin mərkəzi. Rayon mərkəzindən 7 kilometr Şimal-Şərqdə, dağ ətəyindədir. Əhalisi 2045 nəfər; bağçılıq, əkinçilik, heyvandarlıq və meyvəçiliklə məşğuldur. Orta məktəb, mədəniyyət evi, tibb məntəqəsi, rabitə şöbəsi, 2 məscid var.*

# Nüsnüs–Ordubadın bəzəyi

*Muxtar respublikada gedən inkişaf, quruculuq prosesləri bu kəndi xoş günə çıxarıb*

*Əvvəli 1-ci səhifədə*

Bu obyektin tikilməsi torpaq adamlarının ürəyincə olub. Çünki artıq zəruri olan hər hansı bir şey üçün rayon mərkəzinə ya da şəhərə getmək lazım gəlməyəcək. Bundan başqa, ötən illərdə kəndin fasiləsiz enerji ilə təmin olunması da ürəkaçan hadisədir. Əvvəllər evləri isitmək üçün yeganə yanacaq növü olan odundan istifadə olunurdu. Bu da bağ-bağçaların yaraşığı olan yaşıllıqların ilbəil seyrəlməsi ilə nəticələnirdi. İndi isə insanlar qış aylarında yanacaq sarıdan narahatlıq keçirmirlər. Artıq evləri mavi yanacaq isidir. Bu yurd yerində əhalinin keyfiyyətli rabitə xidməti ilə təmin olunmasına da xüsusi diqqət göstərilir. Demək olar ki, hər ev telefonla təmin olunub.



Kənddə müxtəlif sahələr içərisində daha çox meyvəçiliyin inkişafından da danışan müsahibim qeyd etdi ki, 47 hektar ümumi əkin sahəsi olan kəndin ərazisinin 37 hektarını meyvə bağları təşkil edir. Dağətəyi zonada yerləşməsi bu sahənin inkişafına şərait yaradıb. Nüsnüs bağlarında xüsusi ətri və dadı, tamı ilə seçilən alma, ərik, gilənar, gilas, şaftalı, qoz kimi meyvə sortları çoxluq təşkil edir. Bu kənd yeməklərimizin əvəzsiz ədvası olan sumağın da vətəni sayılır. Bağ salmağı, ağaclara yaxşı qulluq göstərməyi özlərinə borc bilən nüsnüslülər ilbəil meyvə bağlarını yeni əkilmiş müxtəlif növ ağaclarla zənginləşdirirlər. Limonçuluq bu kəndin sakinlərinin əsas məşğuliyyətlərindən biri sayılır. Bağbanlar limonçuluğu ən çox gəlir gətirən sahələrdən biri sayırlar. Bu kənddə elə ev olmaz ki, orada 5-10 limon kolu becərilməsin.

Ümumiyyətlə, 2045 nəfər əhalisi olan kənddə 572 təsərrüfat var. Muxtar respublikada heyvandarlığın inkişafı ilə bağlı həyata keçirilən tədbirlərdən bu kəndə də pay düşüb. Bunun üçün də kənddə bu sahəyə xüsusi diqqət yetirilir. Hazırda bu yurd yerində 200 iribuynuzlu, 3700 xırdabuynuzlu heyvan bəslənilir. Bu da əhalinin ət və süd məhsullarına olan tələbatının ödənilməsi baxımından mühüm göstəricidir.

Dostum məni kəndin bütün maraqlı yerləri ilə ətraflı tanış etdi. Fürsətdən istifadə edib kənd məktəbi ilə tanış oldum. 1980-ci ildən fəaliyyət göstərən məktəb 400 şagird yerlikdir. Hazırda bu məktəbdə 213 şagird təhsil alır. Bu il buraxılış siniflərindən 10 nəfər müxtəlif ali məktəblərə qəbul olub. Kəndin yuxarısında yerləşən Nüsnüs pirini də ziyarət edirik. Bu inanc yeri orta əsrlərə aid ziyarətgahlardan biridir. Tarixi memarlıq abidəsi kimi diqqəti cəlb edən məscid binasının həyətindəki sadə məzarın kimə aid olduğu məlum deyil. Bir çox mənbələr bu tarixi inanc yerinin Əshabi-Kəhf ziyarətgahı ilə eyni dövrə–Dağ Yunus dövrünə aid olduğunu bildiririlər.

Məscidin tam ortasında hündürlüyü 5 metrə yaxın olan qara rəngli daş sütun var. Rəvayətə görə əvvəllər bu sütun məscidin birinci mərtəbəsində mövcud olmuşdur. Sonradan isə qaynayıb daha da ucalmışdır. Pirin qapısının üzərində süls xətti ilə ərəb dilində 9 sətirlik kitabə həkk edilmişdir. Bu kitabə haqqında ilk dəfə rus diplomatı və şərqşünası N.V.Xanıkov məlumat vermişdir. O, kitabəni diqqətlə tədqiq etmiş və fransızcaya tərcümə edərək Parisdə nəşr etdirmişdir. Kitabədə bu məscidin Elxani hökmdarı Əbu Səid Bahadır xanın (Olcaytu Məhəmməd Xudabəndənin oğlu) dövründə (1316-1335) inşa edildiyi məlum olur. Məscid 1992-1993-cü illərdə kənd əhalisinin təşəbbüsü ilə təmir edilmiş, divarlarda Quran ayələri və dini xarakterli kəlamlar yazılmış, müqəddəs yerlərin rəsmləri çəkilmişdir.

Muxtar respublikada gedən inkişaf, quruculuq prosesləri bu gün bu kəndi də ağ günə çıxarıb. Və ilbəil də hər şey öz axarına düşüb, dövran yaxşılığa doğru dəyişib. Bundan fərəhlənən kənd sakinləri daha xoşbəxt günlərə doğru yolda var qüvvələrini səfərbər edir, adət-ənənələrini yaşadır, sabaha inamla baxırlar.

*Bu gün Nüsnüs gündəlik qayğıları ilə yaşayır. Muxtar respublikada kəndlərə göstərilən dövlət qayğısından bəhrələnən torpaq adamları əkin sahələrindən maksimum istifadə edir, bağ-bağçalar salır, əkib-becərir və bunun da sayəsində yaxşı gün-güzəran qururlar. Bunun nəticəsidir ki, kənddə ikimərtəbəli evlərin, abad, səliqəli həyətlərin sayı ilbəil artır. Nüsnüslülər Tanrının onlara bəxş etdiyi bu axarlı-baxarlı, gözəl, cənnət məkanın qədrini-qiymətini yaxşı bilir, evlərini-ocaqlarını müqəddəs sayırlar.*

**Səbuhi HÜSEYNOV**

## Xəbərlər

### Kəndə daha bir qayğı

*Məlumdur ki, gənclərin müasir tələblər səviyyəsində təhsil alması, bilik və intellektual səviyyəsinin yüksəldilməsi, gələcəkdə kamil mütəxəssis kimi yeniləşməsində müasir tipli məktəblərin qurulmasının mühüm əhəmiyyəti vardır. Məhz buna görədir ki, hər il olduğu kimi, cari ildə də muxtar respublikamızda məktəb binalarının tikilməsi və yenidən qurulması diqqət mərkəzində saxlanılır. Məqsəd isə müstəqil dövlətimizin gələcəyini möhkəm əllərdə saxlaya biləcək yaxşı gənclik yetişdirməkdən ibarətdir. Bu istiqamətdə həyata keçirilən təd-birlər təkcə Naxçıvan şəhərini deyil, rayon mərkəzlərini, kənd yaşayış məntəqələrini də əhatə dairəsinə almışdır. Göstərilən qayğıdan Kəngərli rayonuna da xeyli pay düşüb.*

Rayon icra hakimiyyətindən aldığımız məlumata görə, Təzəkənddə məktəb binasında yenidənqurma işləri davam etdirilir. 2 mərtəbədən ibarət olan məktəb binasında bu işlər "Əcəmi" Məhdud Məsuliyyətli Səhmdar Cəmiyyətinin inşaatçılarına həvalə olunub. 110 yerlik nəzərdə tutulmuş məktəb binasında hazırda hörgü işləri davam etdirilir.

Yenidənqurma işlərindən sonra geniş və işıqlı sinif otaqları, hərbi və biologiya kabinələri, müəllimlər və psixoloq otaqları, kompyuter sinfi, idman zalı, kitabxana müəllim və şagirdlərin ixtiyarına veriləcəkdir.

**Nuray ƏSGƏROVA**

### Su və kanalizasiya xətləri təzələnəcəkdir

*Şərur şəhərində və rayon mərkəzinə yaxın olan 17 kənddə yaşayan əhalinin ekoloji cəhətdən təmiz və saf içməli su ilə təmin olunması, eyni zamanda çirkab sularının axıdılması üçün yeni xətlərin çəkilməsini nəzərdə tutan layihənin icrasına başlamaq üçün razılıq əldə olunmuşdur.*

Azərbaycan Hökumətinin Dünya Bankı ilə birgə maliyyələşdirdiyi bu mühüm layihə icra olunduqdan sonra ən azı 50 il müddətində istismar ediləcək, yaşayış məntəqələrinə Aşağı Yaycı kəndindən saniyədə 230 litr saflaşdırılmış içməli su veriləcək və kanalizasiya xətlərinin daşıma gücü saniyədə 240 litr olacaqdır. Çirkab suları Arazqırağı kəndlərdə tikintisi nəzərdə tutulmuş xüsusi qurğular vasitəsilə elə təmizlənəcəkdir ki, bundan əkin sahələrinin suvarılmasında, hətta avtomaşın yuyulan yerlərdə istifadə etmək mümkün olacaqdır. Ümumiyyətlə, içməli suyun təmizlənməsindən tutmuş istehlakçılara çatdırılmasına, çirkab suların təmizlənməsinə qədər bütün proseslər ABŞ-ın mərkəzi şəhərlərində hazırda istismarda olan su və kanalizasiya qurğuları ilə eyni səviyyədə olacaqdır.

Bu barədə Dünya Bankının sifarişçisi, Amerikanın "AİM Texas" şirkətinin prezidenti Əbdülrəhman Tan rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündə məlumat vermişdir.

**Elman MƏMMƏDOV**

# Muxtar respublikada kəhrizlərin bərpası istiqamətində mühüm tədbirlər həyata keçirilir

*Kəhriz sistemi əhalinin keyfiyyətli içməli və suvarma suyuna olan tələbatının ödənilməsində mühüm əhəmiyyət daşıyan hidrotexniki qurğudur. Tarixi mənbələrdən aydın olur ki, insanlar kəhrizlərin mövcud olduğu regionlarda daha çox məskunlaşmışlar. Kəhrizlər dünyanın bir çox ərazilərində mövcud olmasına baxmayaraq onun daha çox yayıldığı region Asiya qitəsidir. Qədim Mesapotomiya, İran, Azərbaycan əraziləri kəhrizlərin geniş istifadə olunduğu torpaqlardır. Muxtar respublikada olan 340-a yaxın kəhriz qeydiyyata alınaraq pasportlaşdırılmış, bir çox kəhrizdə isə təmir-bərpa işləri həyata keçirilmişdir.*

XX əsrin əvvəllərində Naxçıvan şəhərində yaşamış Kalba Musa adlı şəxsin təşəbbüsü nəticəsində tikilən eyniadlı kəhriz uzun müddət şəhər əhalisinin suya olan tələbatını ödəmişdir. Lakin əsrin sonlarında şəhərin böyüməsi və əhalinin artması nəticəsində digər alternativ hidrotexniki qurğulara üstünlük verilməsi bu kəhrizin istismardan kənarda qalmasına səbəb olmuş və kəhriz tamamilə yararsız vəziyyətə düşmüşdü. 2006-cı ildən etibarən Kəhrizlər idarəsi tərəfindən kəhrizin yenidən əsaslı təmirinə başlanılmış və gərgin zəhmət tələb edən bu iş 2009-cu ilin iyul ayında başa çatdırılmışdır. Hazırda su sərfi saniyədə təxminən 40-50 litr olan kəhriz Naxçıvan şəhərinin bir çox məhəllələrinin və yaşıllıqların suya olan tələbatını ödəyir. Bundan başqa, idarə tərəfindən Naxçıvan şəhərində yerləşən "Lülə" kəhrizində təmir işləri davam etdirilir.

Kəhrizlərin öyrənilməsi və bərpası istiqamətində Qeyri Hökumət Təşkilatları (QHT) da məqsədyönlü işlər həyata keçirirlər. 1999-cu ildən etibarən muxtar respublikada fəaliyyət göstərən Beynəlxalq Miqrasiya Təşkilatı tərəfindən kəhrizlərin yenidən əhəmiyyətli hidrotexniki qurğu kimi istismara qaytarılması üçün bir çox layihələr həyata keçirilir. Təşkilat Kəhrizlər idarəsi ilə birlikdə muxtar respublikadakı tarixən mövcud olan kəhrizlərin yerlərini müəyyənləşdirərək onların hidrogeoloji modelini hazırlayır və lazım olanlarda təmir işləri aparır. Bu günə qədər təşkilat tərəfindən həyata keçirilən "100 kəhriz" layihəsi çərçivəsində rayonlarda və kəndlərdə 40 kəhriz əsaslı təmir olunaraq əhalinin istismarına verilmiş, 20-sində işlər davam etdirilir, 10-unda isə yaxın müddətdə təmir işlərinə başlanacaqdır.

Qeyd edək ki, kəhrizlərin təmiri ilə yanaşı, onların öyrənilməsi, istifadə qaydaları və qorunması məqsədilə maarifləndirici söhbətlərin aparılması da əsas şərtlərdən biridir. Beynəlxalq Miqrasiya Təşkilatı ilə Dövlət Meliorasiya və Su Təsərrüfatı Agentliyi arasında imzalanmış memoranduma uyğun olaraq 2007-ci ildə Kəhrizlər idarəsinin nəzdində "Kəhriz Resus Mərkəzi" yaradılmışdır. Mərkəz yarandığı gündən başlayaraq respublikamızdakı kəhrizlər haqqında məlumatların toplanması işlərini, onların pasportlaşdırılmasını həyata keçirir. 2009-cu ildə "Kəhriz Resus Mərkəzi"nin internet saytı (www.KRC.az) da istifadəyə verilmişdir. Respublikamızda yerləşən kəhrizlər haqqında istənilən məlumatı mərkəzin saytından götürmək mümkündür.

Bir məsələ xüsusilə qeyd olunmalıdır ki, kəhriz sisteminin mövcud olduğu dünya dövlətlərində yeni kəhrizlərin qazılması məsələsi qeyri-mümkün olduğu bir vaxtda muxtar respublikada bu istiqamətdə işlər davam etdirilir. Hazırda Şərur rayonunun Dəmirçi və Culfa rayonunun Camaldın kəndlərində aparılan kəşfiyyat işlərindən sonra bu ərazidə kifayət qədər yeraltı şirin su ehtiyatının olduğu müəyyənləşdirilib və hidrogeoloji model hazırlandıqdan sonra yeni kəhrizin qazılmasına başlanılmışdır.

Yuxarıda sadalananlar bir daha təsdiq edir ki, dövlətimiz tərəfindən Qeyri Hökumət Təşkilatlarına göstərilən diqqət və qayğı, ilk növbədə, iqtisadiyyatın inkişafına və əhalinin rahatlığına şərait yaratmış olur. Bu səbəbdən də 3 fevral 2010-cu il tarixdə Kəhrizlər idarəsinin nəzdində yeni bir QHT olan "Kəhriz Resus Mərkəzi İctimai Birliyi" yaradılmışdır. "Kəhriz Resus Mərkəzi İctimai Birliyi" Naxçıvan MR Ədliyyə Nazirliyində qeydiyyata alındıqdan sonra öz təsis yığıncağını keçirərək fəaliyyətə başlamışdır. Birlik tərəfindən gələcəkdə aidiyyəti dövlət orqanları və QHT-lər, elm adamları və sahibkarlar arasında informasiya mübadiləsi aparmaq, texniki dəstək göstəriləcək kəhrizlərin bərpası işini Azərbaycanın digər rayonlarına yaymaq, kəhrizlərdən istifadəni genişləndirmək, yeni texnologiyaları tətbiq etməklə kəhrizlərin su sərfini artırmaq, kəhriz sistemi haqqında ictimai rəyin formalaşmasını təmin etmək kimi məsələlər müəyyənləşdirilmişdir. Ümumilikdə isə bu QHT-nin yaradılması muxtar respublikamızda kəhrizlərin ictimai əhəmiyyətini daha da artırmış olacaqdır.

**Ülvi HÜSEYNLİ**

*Naxçıvan MR DMSTA-nın Mətbuat və ictimaiyyətlə əlaqələr üzrə baş məsləhətçisi*

